*Vətən bölünməzdir!*



# LƏNKƏRAN

İCTİMAİ-SİYASİ QƏZET

№ 13-14 (8417) ◉ Bazar ertəsi, 16 aprel 2018-ci il ◉ Qəzetin əsası 1931-ci ildə qoyulmuşdur ◉ Qiyməti 50 qəpik



## LƏNKƏRAN ŞƏHƏRİNDƏ OLİMPİYA İDMAN KOMPLEKSİNİN TİKİNTİSİ İLƏ BAĞLI ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Lənkəran şəhərində Olimpiya İdman Kompleksinin tikintisinin başa çatdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.9.11-ci yarımbəndində göstərilmiş məbləğin 12,0 milyon (on iki milyon) manatı Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.
3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Bakı şəhəri, 6 aprel 2018-ci il.

# DAHA GÜCLÜ AZƏRBAYCAN QURACAĞIQ

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də keçirilən seçkilərdə ona göstərilən böyük etimada görə xalqımıza müraciət edərək minnətdarlığını bildirib.**

– Əziz həmvətənlər!

Prezident seçkilərində Azərbaycan xalqı yenidən mənə böyük etimad göstərmişdir. Bu etimada, bu böyük dəstəyə görə doğma xalqıma minnətdarlığımı bildirmək istəyirəm.

Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək bizim inkişafımız üçün əsas şərtdir. Xalq-iqtidar birliyi Azərbaycanda inkişafımızın əsas amilidir. Bu seçkilərdə Azərbaycan xalqı sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə səs vermiş, son 15 il ərzində görülən işlərə yüksək qiymət vermişdir. Bütün bu uğurları biz sizinlə birlikdə qazandıq.



Xalq-iqtidar birliyi, bizim məqsədyönlü siyasətimiz bu gün Azərbaycanı qüdrətli dövlətə çevirmişdir. Azərbaycanın beynəlxalq nüfuzu artır, biz dünya miqyasında layiqli yer tuta bilmişik. Bu gün Azərbaycan dünyada çox böyük hörmətə, rəğbətə, dəstəyə malik olan bir ölkədir. Biz etibarlı tərəfdaşıq, bizimlə hesablaşırlar və biz beynəlxalq aləmdə öz mövqelərimizi böyük dərəcədə gücləndirə bilmişik.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı prinsipial mövqeyimizdən bir addım da geriyə atmamışıq. Bizim prinsipial mövqeyimiz daha da güclənir. Bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır, bunun başqa yolu yoxdur. Son illər ərzində bir çox mötəbər beynəlxalq təşkilatlar bizim mövqeyimizi, ədaləti dəstəkləyən bir sıra qərar və qətnamələr qəbul etmişlər. Biz böyük diplomatik qələbələrə nail olmuşuq. Eyni zamanda, döyüş meydanında biz böyük qələbəyə nail olmuşuq. Azərbaycan əsgəri, Azərbaycan Ordusu, Azərbaycan dövləti işğal altında olan torpaqlarımızın bir hissəsini işğalçılardan azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan təmizləndi və o torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. İşğaldan azad edilmiş torpaqlara həyat qayıdır, insanlar qayıdır. O torpaqlarda prezident seçkiləri keçirilir. Gün gələcək və bu gün hələ də işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağı qaldırılacaq, bu torpaqlarda prezident seçkiləri keçiriləcək, Azərbaycan Prezidenti seçiləcəkdir.

Biz daha güclü olmalıyıq. Güclü olmaq üçün daha güclü iqtisadiyyat qurmalıyıq. Son 15 il ərzində iqtisadi sahədə Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. İqtisadiyyatımız 3,2 dəfə artmışdır və bu gün Azərbaycan dünyanın ən rəqabətqabiliyyətli ölkələri sırasındadır. Rəqabət qabiliyyətliliyinə görə biz 35-ci yerdəyik.

Siyasətimizin mərkəzində həmişə Azərbaycan vətəndaşı, onun problemləri, qayğıları, onun rifahı olubdur. Son 15 il ərzində maaşlar və pensiyalar 8 dəfə artmışdır. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Azərbaycan bu illər ərzində kosmik dövlətə çevrilibdir. Biz ən qabaqcıl texnologiyaları ölkəmizə gətiririk, tətbiq edirik və texnoloji, elmi inkişaf gələcək fəaliyyətimiz üçün də əsas prioritetlərdən biri olacaqdır.

Bir sözlə, bütün istiqamətlər üzrə nəticələr göz qabağındadır. Azərbaycan nəhəng enerji və nəqliyyat layihələrini icra edir. Bizim təşəbbüsümüz və fəal iştirakımızla o layihələr əsasında Avrasiyanın enerji və nəqliyyat xəritələri yenidən tərtib olunur. Azərbaycan dövləti heç vaxt bugünkü qədər güclü olmamışdır. Biz güclü dövlət qurmuşuq, daha da güclü Azərbaycan qurmalıyıq və əminəm ki, quracağıq.

Keçdiyimiz yol şərəfli yoldur, qələbələr, uğurlar yoludur. Əminəm ki, biz həmişə qələbələr yolu ilə gedəcəyik. Yeni qələbələrə doğru irəli!

**AZƏRTAC**

*Lənkəranda prezident seçkiləri azad, ədalətli və şəffaf şəraitdə keçdi*



Səh. 2



Səh. 3

*Lənkəranda prezident seçkiləri azad, ədalətli və şəffaf şəraitdə keçdi*

*Prezident seçkilərində qələbə sevinci coşqu ilə qeyd edildi*



Səh. 4



Səh. 5

*Soyqırımı gününə həsr olunmuş silsilə tədbirlər*



*Şəhidlərin anım mərasimləri keçirilib*

Səh. 6

# LƏNKƏRANDA PREZİDENT SEÇKİLƏRİ AZAD, ƏDALƏTLİ VƏ ŞƏFFAF ŞƏRAİTDƏ KEÇDİ

***(Reportaj)***





**Azərbaycan Respublikası sivil dünyanın cəmiyyətimizin yüksəlişinə xidmət edən mütərəqqi, demokratik prinsiplərə söykənən inkişaf modellərini rəhbər tutmaqla bu yolda böyük uğurlar qazanıb.**

Seçkilərin qanunvericiliyə uyğun olaraq azad, ədalətli və şəffaf keçirilməsi, seçicilərin səsvermədə fəal iştirakı, vətəndaşların sərbəst seçim etmələri demokratiyanın təmin edilməsinin və onun inkişafının əsas göstəricisi hesab olunur. Qürurla deyə bilərik ki, ötən illərdə respublikamızda yaradılan demokratik institutlar inkişaf etdikcə seçki sisteminin təkmilləşdirilməsi prosesi də uğurla həyata keçirilib, beynəlxalq standartlara cavab verən Seçki Məcəlləsi qəbul olunub, bu qanuna əlavələr və dəyişikliklər edilməklə seçki qanunvericiliyi daim təkmilləşdirilərək azad və ədalətli seçkilərin keçirilməsi üçün mükəmməl hüquqi baza yaradılıb.

Aprelin 11-də ölkəmizdə, o cümlədən onun əsrarəngiz guşələrindən biri olan Lənkəranda bayram əhval-ruhiyyəsi şəraitində keçirilən növbəti prezident seçkiləri dediklərimizi bir daha təsdiq etdi.

Demokratik seçkilərin keçirilməsi vətəndaşın öz seçiminə inamının, seçdiyi şəxsə etimadının ifadəsi olmaqla, həm də Vətən, xalq qarşısında məsuliyyətinin göstəricisidir. 11 aprel prezident seçkilərində Lənkəran rayonunda seçicilərin seçki hüquqlarından istifadə edərək, seçdikləri namizədə səs vermələri üçün zəruri olan bütün şərait yaradılmışdı. Azərbaycanın seçki tarixində 2008-ci ildən başlayaraq tətbiq olunan və seçki məntəqələrindən kənarda insanlara internet vasitəsilə səsvermə prosesini canlı izləmə imkanı verən veb-kameralardan istifadə təcrübəsi bu seçkilərdə də davam etdirilib. Müxtəlif təşkilatlar tərəfindən "Exit-poll" keçirilib, seçkilərin gedişini müşahidə edən istər beynəlxalq, istərsə də yerli müşahidəçilər üçün geniş imkanlar yaradılıb. Sevindirici haldır ki, hər zaman olduğu kimi, 11 aprel prezident seçkilərində də Lənkəran şəhərinin və rayonun seçiciləri səsvermə prosesində xüsusi fəallıq nümayiş etdiribər.



Lənkəran rayonunda 4 seçki dairəsi üzrə 116 seçki məntəqəsi təşkil olunub. 73 saylı Lənkəran şəhər seçki dairəsinin əhatə etdiyi ərazidə 28 məntəqə, 74 saylı Lənkəran kənd seçki dairəsinin əhatə etdiyi ərazidə 39 məntəqə, 75 saylı Lənkəran-Masallı seçki dairəsinin Lənkəran rayonunda əhatə etdiyi ərazidə 29 və 76 saylı Lənkəran-Astara seçki dairəsinin Lənkəran rayonunda əhatə etdiyi ərazidə 20 seçki məntəqəsi yaradılıb. Rayon üzrə seçicilərin sayı 116 min 117 nəfərdir. Seçkilərin gedişini birbaşa müşahidə etmək üçün Mərkəzi Seçki Komissiyası tərəfindən Lənkəran rayonunda 22 məntəqədə veb-kamera quraşdırılıb.

Seçkilərin gedişini izləmək üçün şəhər və rayon ərazisindəki seçki məntəqələrinə baş çəkdik. 73 saylı Lənkəran şəhər seçki dairəsinin 13 saylı məntəqəsində böyük seçici axınının şahidi olduq.

İlk səsvermə bülletenini qutuya Lənkəran şəhər sakini, 96 yaşlı Kamal Kələntərli salırdı. Məntəqədən çıxandan sonra o, öz fikirlərini bizimlə bölüşərək dedi:

*(Ardı səh. 3-də)*






# LƏNKƏRANDA PREZİDENT SEÇKİLƏRİ AZAD, ƏDALƏTLİ VƏ ŞƏFFAF ŞƏRAİTDƏ KEÇDİ

***(Reportaj)***





*(Əvvəli səh. 2-də)*

– Seçkilərin obyektiv keçirilməsi üçün ideal şərait yaradılıb. Heç bir maneə, təzyiq yoxdur. Tam sərbəstlikdir. Səsvermə demokratik şəraitdə keçir. Əsl ədalətli seçimdir. Mən özüm cənab İlham Əliyevə səs verdim. Ona çox inanıram. Ötən 15 ildə cənab İlham Əliyevin düzgün rəhbərlik bacarığı ilə ölkəmiz dünyanın lider dövlətlərindən birinə çevrilib, iqtisadiyyatımız dəfələrlə artıb, həyat şəraitimiz yaxşılaşıb. Ən əsası sakit, dinc və təhlükəsiz şəraitdə övladlarımızla, nəvələrimizlə birgə yaşayırıq.

Dairənin 6, 8,15,16 və 17 saylı məntəqələrində də seçici fəallığı yüksək idi.

74 saylı Lənkəran kənd seçki dairəsinin Gərmətük qəsəbə tam orta məktəbində yerləşən 2 saylı məntəqəsində səsvermə prosesini onlayn qaydada müşahidə etmək üçün veb-kamera quraşdırılmışdı. Seçici Sərhad Məmmədov bizimlə söhbətində bildirdi ki, xalqın seçki mədəniyyəti çox yüksəkdir. Hər kəs növbə ilə şəxsiyyət vəsiqəsini təqdim edib bülletenini alıb şirmanın arxasına keçir və seçdiyi namizədə tam azad şəkildə səsini verir. Heç bir komissiya üzvü və ya müşahidəçi seçicilərin seçiminə müdaxilə etmir. Məntəqədə komissiya üzvləri öz fəaliyyətlərini tam qanunamüvafiq qurublar. Mən, əlbəttə Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs verdim. Çünki İlham Əliyev dünyada tanınan siyasi xadimdir. Özünün əməli fəaliyyəti ilə xalqımızın maraqlarını ifadə edir. Onun rəhbərliyi ilə ölkəmiz böyük inkişafa nail olub.

75 saylı Lənkəran-Masallı seçki dairəsinin Vilvan kəndində yerləşən 27 saylı məntəqəsinə gəlişimiz günorta saatlarına təsadüf etdi. Məntəqədə yüksək seçici fəallığı açıq-aydın hiss olunurdu. Vilvan kənd orta məktəbinin müəllimi, seçici Ülkər Rəhimova ilə məntəqənin çıxışında görüşürük. O, ürək sözlərini belə ifadə etdi:




– Bu gün hamımız üçün böyük bayramdır. Seçimimiz möhtərəm Prezidentimiz İlham Əliyevdir. Mən ona səs verdim. Çünki onun dövründə ölkəmizdə sabitlik və əmin-amanlıq hökm sürüb. Biz müəllimlərin maaşı, pensiyalar, müavinətlər dəfələrlə artırılıb. Kəndimizdə ən müasir tələblərə cavab verən 3 mərtəbəli yaraşıqlı məktəb tikilib, yollarımız başdanbaşa asfaltlanıb, yeni körpü salınıb. Biz illərlə bunları arzulamışıq. Bütün bunlara görə Prezidentimizə çox minnətdarıq.

75 saylı Lənkəran-Masallı seçki dairəsinin Lənkəran rayonu üzrə 29 məntəqəsində 28 min 523 nəfər seçici qeydə alınıb. Seçki dairəsinin 1 saylı məntəqəsindəyik. Saatın əqrəbləri 12-yə yaxınlaşır. Məntəqəyə isə seçici axını səngimir.

Liman şəhər sakini, yazıçı-publisist Səyavuş Süleymanlı ilə məntəqənin qarşısında görüşüb söhbət etdik. O, seçicilərin fəallığı ilə əlaqədar fikirlərini söylədi:

– Seçicilərdə böyük ruh yüksəkliyi var. Gördüyünüz kimi, seçkilər tam demokratik və şəffaf şəraitdə keçir. Heç bir qanun-qayda pozuntusuna yol verilmir. Ən əsası əsl seçici mədəniyyətinin şahidiyik. Hər bir seçici öz ürəyinin səsinə qulaq asaraq istədiyi namizədə səs verir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevi dəstəkləyənlər daha çoxdur. Mən özüm də İlham Əliyevə səs vermişəm. İnanıram ki, məhz onun rəhbərliyi ilə dövlətimiz daha da inkişaf edib qüdrətlənəcək, beynəlxalq aləmdə nüfuzunu artıracaq.

Seçki dairəsinin digər məntəqələrində də seçicilərin fəallığının şahidi olduq.

Dairənin Xarxatan kənd tam orta məktəbində yerləşən 26 saylı məntəqəsində müstəqil müşahidəçi Bülbül Dadaşov təəssüratlarını belə ifadə etdi:

– Məntəqə açılan andan müşahidə aparıram. İndiyədək komissiyanın işində heç bir qanun pozuntusuna rast gəlməmişəm. Səsvermə çox şəffaf və sərbəst şəraitdə keçir. Müşahidəçilər üçün yaradılmış şərait bizi qane edir. Bütün prosesləri müşahidə edirik.

76 saylı Lənkəran-Astara seçki dairəsinin Lənkəran rayonunda yerləşən 16 saylı Şürük kənd seçki məntəqəsində də seçici axınının şahidi olduq. Səsvermə mütəşəkkil keçirdi. Seçicilərin üzündən sevinc yağırdı. Bu da seçkilərin şəffaf, ədalətli və demokratik keçməsindən xəbər verirdi.

**Reportajı hazırladılar:**
**İltifat ƏHMƏDOV,**
**Ağaddin BABAYEV**





# LƏNKƏRANLILAR PREZİDENT SEÇKİLƏRİNDƏ QƏLƏBƏ SEVİNCİNİ COŞQU İLƏ QEYD EDİBLƏR





Aprelin 11-də müvəffəqiyyətlə baş tutan Prezident seçkiləri Azərbaycanın hər yerində olduğu kimi, Lənkəranda da seçicilərin yüksək əhval-ruhiyyəsi və mütəşəkkilliyi ilə keçib.

Şəhər və rayon ərazisində fəaliyyət göstərən 4 seçki dairəsinin 116 seçki məntəqəsində seçicilərin mütləq əksəriyyəti Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyevə səs verərək ölkədə Heydər Əliyev siyasi kursunun davam etməsi arzusunda olduqlarını ifadə ediblər.

Bu parlaq qələbə münasibətilə Yeni Azərbaycan Partiyası Lənkəran Şəhər Təşkilatının təşəbbüsü ilə şəhərin Heydər Əliyev Xatirə Parkında



minlərlə lənkəranlının iştirakı ilə möhtəşəm konsert proqramı təşkil olunub. Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, yerli ictimaiyyətin nümayəndələri, sadə zəhmət adamları konsertdə iştirak ediblər.

Peşəkar musiqiçilərin, bədii özfəaliyyət kollektivlərinin ifasında səslənən mahnılar tədbir iştirakçıları tərəfindən sürəkli alqışlarla qarşılanıb.

Konsert atəşfəşanlıqla başa çatıb.

**Xudaverdi CAVADOV**



# BEYNƏLXALQ MÜŞAHİDƏÇİLƏR: "LƏNKƏRANDA SEÇKİ PROSESİ YÜKSƏK SƏVİYYƏDƏ TƏŞKİL EDİLİB"

Azərbaycan Respublikası Prezidentinin seçkilərini izləmək üçün Lənkərana səfər edən beynəlxalq təşkilatların nümayəndələri olan müşahidəçilər şəhər və rayonun ayrı-ayrı seçki məntəqələrində olublar.

Seçkilərin təşkil edilməsi, məntəqələrdə yaradılan şərait və seçicilərin iştirakı ilə bağlı öz təəssüratlarını jurnalistlərlə bölüşən müşahidəçilər yüksək səviyyədə təşkilatçılıq olduğunu bildiriblər.

73 saylı Lənkəran Şəhər Dairəsinin 27 saylı seçki məntəqəsində olan Avropa Şurasının müşahidə missiyasını təmsil edən fransalı senatorlar – Kern Claude və Duranton Nikole Lənkərandakı məntəqələrdə yaradılan şəraitin dünya standartlarına uyğun olduğunu, heç bir qanun pozuntusunun qeydə alınmadığını qeyd ediblər.

Beynəlxalq müşahidəçi Duranton Nikole seçkilərlə bağlı ilk təəsüratını ifadə edərək deyib: – "İnsanlar daha mobildirlər. Onlar çox uzaqdan səs verməyə gəlirlər. Lənkəranda da bir çox məntəqələrə baxacağıq. Sonra Bakıya yola düşəcəyik. Yolboyu rastlaşdığımız digər seçki məntəqələrinə də baş çəkəcəyik. Axşam isə müşahidələrimiz əsasında danışacağıq. Azərbaycan çox gözəl ölkədir. Bizi çox gözəl qarşıladılar, azərbaycanlılar çox mehribandır".

**Barat KƏRİMOV**

# LƏNKƏRANDA 113 YAŞLI SEÇİCİ SƏS VERİB



Lənkəranın 113 yaşlı seçicisi Azərbaycanda keçirilən prezident seçkilərində səs verib. 75 saylı Lənkəran-Masallı Seçki Dairəsinin 13 saylı məntəqəsində qeydiyyata alınan 1905-ci il təvəllüdlü Şabikə Fərhad qızı Axundovadır.

Azərbaycanda keçirilən əvvəlki seçkilərdə fəal iştirak edən Şabikə nənənin səhhətində son vaxtlar problem yaranıb. Elə bu səbəbdən də 113 yaşlı seçicinin ərizəsinə müvafiq olaraq onun yaşadığı ünvana daşınan seçki qutusu aparılıb.

Ağbirçək nənə ömrünün qalan hissəsində də respublikamızda keçiriləcək seçkilərdə məmnuniyyətlə iştirak edəcəyini bildirib.

Qeyd edək ki, Lənkəranın Boladi kəndində yaşayan Şabikə Axundova ikinci dünya müharibəsində arxa cəbhədə iştirak edib. Uzun müddət yerli təsərrüfatda tərəvəzçi və çaybecərən kimi çalışıb.

**Natiqə AĞAYEVA**



# LƏNKƏRANDA AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜNƏ HƏSR OLUNMUŞ SİLSİLƏ TƏDBİRLƏR KEÇİRİLİB





1918-ci il martın 30-u gecə saatlarında Bakıda başlanan, daha sonra ölkənin bölgələrində davam etdirilən, 20 minə yaxın günahsız insanın, o cümlədən çoxlu sayda qoca, qadın və uşağın qətli ilə nəticələnən soyqırım günündən bizi 100 illik zaman fasiləsi ayırsa da, tarixdə heç nə unudulmur, heç nə də yaddan çıxmır. Qanlı qırğınların günahsız qurbanlarının xatirəsi soyqırım günündə hər yerdə olduğu kimi Lənkəranda da geniş şəkildə yad olunub.

Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, rayonun hüquq mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə və təşkilatların əmək kollektivləri, ictimaiyyət nümayəndələri, ziyalılar, ağsaqqallar, din xadimləri, müharibə veteranları, gənclər Lənkəran şəhərinin mərkəzində soyqırım qurbanlarının xatirəsi şərəfinə inşa olunmuş abidə kompleksini ziyarət ediblər. Kompleksin önünə günahsız qurbanların xatirəsinə ehtiram əlaməti olaraq al-qırmızı qərənfillər düzülüb.

Anım mərasimi Heydər Əliyev Mərkəzində soyqırımı hadisələrinin 100 illiyinə həsr olunmuş elmi konfransla davam etdirilib. Tədbirdə çıxış edən natiqlər ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri etnik təmizləmə və soyqırımı siyasətindən, 1918-ci il mart-aprel aylarında törədilən kütləvi qırğınlardan bəhs edərək, həmin dövrdə baş verənləri bəşəri cinayət adlandırıblar.

Çıxışlarda Ümummilli Lider Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanında bu qanlı cinayətə əsl hüquqi və siyasi qiymətin verildiyi bildirilib, mənfur düşmənlərimizin məkrli niyyətləri barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında dövlətimizin başçısı cənab İlham Əliyevin fəaliyyəti yüksək qiymətləndirilib.

Qeyd edək ki, Lənkəran Dövlət Universitetində, pedaqoji və tibb kolleclərində, rayonun ümumtəhsil müəssisələrində və mədəniyyət ocaqlarında da azərbaycanlıların soyqırımı hadisələrinin 100 illiyi müxtəlif səpkili tədbirlərlə qeyd olunub.

***

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Lənkəran Regional Elmi Mərkəzinin (LREM) təşkilatçılığı, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Lənkəran bölgəsi üzrə şöbəsinin iştirakı ilə "1918-ci il Azərbaycanlıların soyqırımının 100 illiyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı"nın icrası mövzusunda elmi-praktik seminar keçirilib.

Tədbiri giriş sözü ilə açan AMEA-nın Lənkəran Regional Elmi Mərkəzinin direktoru, aqrar elmləri doktoru, professor Fərman Quliyev çıxışında tarixən mənfur qonşularımız olan ermənilər tərəfindən xalqımıza qarşı törədilən etnik təmizləmə, soyqırımı siyasətinin növbəti mərhələsinin 1918-ci il martın 31-də xüsusi qəddarlıq və amansızlıqla həyata keçirildiyini bildirib.

LREM-in elmi işlər üzrə direktor müavini, tarix üzrə fəlsəfə doktoru Mais Cəfərov "31 mart – Azərbaycanlıların soyqırım günü" mövzusunda məruzə ilə çıxış edərək bolşevik-daşnak qüvvələri tərəfindən həyata keçirilən soyqırım hadisələrinin Bakı ilə yanaşı, Quba, Şamaxı, Lənkəran və digər ərazilərdə də baş verdiyini qeyd edib. M.Cəfərov 1918-ci ilin sentyabrına qədər davam edən soyqırım hadisələri vaxtı Lənkəran qəzasında 40-dan artıq kəndin yandırıldığını tədbir iştirakçılarının diqqətinə çatdırıb.

LREM-in arxeologiya şöbəsinin böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Samir Kərimov "Quba məzarlığı soyqırım abidəsi kimi" mövzusunda çıxış edərək Prezident İlham Əliyevin 30 dekabr 2009-cu il tarixli Sərəncamı ilə Quba şəhərində "Soyqırımı Memorial Kompleksinin" yaradıldığını, bu abidənin xalqımızın bolşevik-daşnak qüvvələri tərəfindən soyqırıma məruz qalmasının təsdiqi kimi mühüm əhəmiyyətini vurğulayıb.

LREM-in arxeologiya şöbəsinin elmi işçisi Aydan Dadaşova "31 mart azərbaycanlıların soyqırımının nəticələri" mövzusunda çıxış edərək 1918-ci il 31 mart soyqırımının xalqımızın tarixi yaddaşında əbədi yer tutduğunu, öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində tayı-bərabəri olmayan bir cinayət aktı olduğunu bildirib.

DQİDK-nin Lənkəran bölgəsi üzrə şöbəsinin əməkdaşı Emin Həmidli, LDU-nun baş müəllimi, tarix üzrə fəlsəfə doktoru Fəxrəddin Hüseyn, LDU-nun mətbuat xidmətinin rəhbəri Esmira İsmayılova, Lənkəran Humanitar Kollecinin müəllimi Cəmil Quliyev, AMEA Əlyazmalar İnstitutunun doktorantı Samid Quliyev, Lənkəran şəhər 9 saylı tam orta məktəbin müəllimi Rahim Nuriyev, Ə.Y.Xalıqov adına Rvo kənd tam orta məktəbinin müəllimi Həmzağa Rüstəmov, Kənarmeşə kənd tam orta məktəbinin müəllimi Ülviyyə Əliyeva və digərləri mövzu ətrafında müzakirələr aparaq, Ulu Öndər Heydər Əliyevin 1998-ci il 26 mart tarixli fərmanı ilə 31 mart soyqırımına, həmçinin tarixin müxtəlif dönəmlərində xalqımızın məruz qaldığı soyqırım hadisələrinə ilk dəfə hüquqi-siyasi qiymətin verildiyini qeyd ediblər.

**Ağaddin BABAYEV**





# ŞƏHİDLƏRİN ANIM MƏRASİMLƏRİ KEÇİRİLİB

***Şanlı Azərbaycan Ordusunun düşmənin təxribatlarına cavab olaraq tarixi qələbə qazanmasından iki il keçir. 2016-cı ilin aprel ayının əvvəllərində sarsıdıcı zərbə ilə düşmənin çoxlu canlı qüvvəsini və hərbi texnikasını itkiyə məruz qoyan qəhrəman döyüşçülərimiz bir neçə düşmən postunu məhv edərək strateji yüksəkliklərin olduğu torpaqları geri qaytarıblar.***

Lənkəran şəhər 7 saylı tam orta məktəbində bu təhsil ocağının məzunu olmuş, Azərbaycan Silahlı Qüvvələrinin şəhid zabiti Qalib Layim oğlu Zülfüqarlının anım mərasimi keçirilib.

Tədbirdə rayonun icra strukturlarının nümayəndələri, Qarabağ müharibəsi veteranları, məktəbin şagird və müəllimləri, həmçinin ictimaiyyət nümayəndələri iştirak ediblər.

Məktəbin direktoru Ülviyyə Əliyeva şəhid zabitin ömür yolundan danışıb. Diqqətə çatdırılıb ki, Qalib Layim oğlu Zülfüqarlı 1992-ci il dekabrın 20-də anadan olub. Lənkəran şəhər 7 saylı orta məktəbini bitirdikdən sonra 2010-cu ildə Heydər Əliyev adına Ali Hərbi Məktəbə



qəbul olunub. 2014-cü ildə leytenant rütbəsi ilə cəbhənin ön sıralarında hərbi xidmətini davam etdirib. Zabiti olduğu hərbi hissənin döyüşçüləri ilə birlikdə Qalib Zülfüqarlının döyüşlərdə fərqləndiyi, komandanlığın təşəkkürnamələri ilə təltif olunduğu bildirilib.

Qeyd olunub ki, ötən il martın 27-də Azərbaycan-Ermənistan sərhədinin Qazax rayonu ərazisində düşmən təxribatının qarşısını alarkən şəhid olan hərbçi ölkə başçısı İlham Əliyevin tapşırığı və müdafiə naziri Zakir Həsənovun əmri ilə ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif olunub.

Mərasimdə Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının müavini – İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Rasilə Əliyeva, şəhər təhsil şöbəsinin müdiri Aslan İbrahimov, Milli Qəhrəman Əsgər Əliyevin atası Ələkbər Əliyev, rayon Ağsaqqallar Şurasının sədr müavini Sərhad Məmmədov, Qarabağ Müharibəsi Əlilləri və Veteranları Cəmiyyətinin sədri Əbülfət Əliyev, şəhidin sinif rəhbəri olmuş Rəisə Axundova və digərləri çıxış edərək Vətən torpaqları uğrunda şəhid olmuş Qalib Zülfüqarlının daim xatirələrdə yaşayacağını, onun qısa, lakin mənalı ömür yolunun gələcək nəsillərə örnək olacağını bildiriblər.

Şəhid leytenantın qardaşı Qabil Zülfüqarlı göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib. Qardaşının Vətən uğrunda şəhidliyindən böyük iftixar hissi keçirən Q.Zülfüqarlı hər an döyüşə atılmağa hazır olduğunu bəyan edib.

Anım mərasimində məktəblilərin ifasında vətənpərvərlik mövzusunda şeirlər və mahnılar səsləndirilib.

***

Torpaqlarımızın qorunmasında mərdliklə döyüşərək şəhid olan qəhrəman oğlullarımızdan biri də Rusif İbrahim oğlu Ağayevdir. Aprel döyüşlərində şəhid olmuş Azərbaycan Silahlı Qüvvələrinin giziri Rusif Ağayevin doğulub boya-başa çatdığı Hirkan qəsəbəsində bu qəhrəman Vətən oğlunun anım mərasimi keçirilib. Mərasimdə Lənkəran Şəhər İcra Hakimiyyəti aparatının məsul işçiləri, yerli sakinlər, şəhidin hərbçi yoldaşları iştirak ediblər. Çıxış edənlər şəhidin döyüş yolundan, döyüşlərdə göstərdiyi şücaətdən söz açıblar. Mərasimdə bütün şəhidlərin ruhuna dualar oxunub, daha sonra Rusif Ağayevin qəsəbə qəbirstanlığındakı məzarı ziyarət olunub.

Qeyd edək ki, Rusif Ağayev 1987-ci il aprelin 16-da Lənkəranda anadan olub. Orta məktəbi



bitirdikdən sonra 2005-ci ildə həqiqi hərbi xidmətə yollanıb. Hərbi xidmətini başa vurduqdan sonra könüllü olaraq xidmətini Azərbaycan Silahlı Qüvvələrinin giziri kimi davam etdirib.

R.Ağayev 2016-cı il aprelin 2-də Azərbaycan-Ermənistan təmas xəttində baş verən atışma zamanı qəhrəmancasına şəhid olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Rusif Ağayev ölümündən sonra göstərdiyi qəhrəmanlığa görə "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalı ilə təltif edilib. Doğulduğu Hirkan qəsəbəsinin küçələrindən biri onun adına verilib. Rusif Ağayev ailəli idi, iki övladı yadigar qalıb.

***

2016-cı il aprelin 2-də Tərtər rayonunun Talış kəndi istiqamətində erməni təxribatının qarşısını alarkən 18 yaşında şəhid olan daha bir əsgərimiz – Əlizaman Fərrux oğlu İslamovun da anım




mərasimi keçirilib. Lənkəranın Cil kəndində təşkil edilən mərasimdə yerli sakinlər, ictimaiyyət nümayəndələri, hərbçilər və şəhidin doğmaları iştirak ediblər. Tədbirdə bildirilib ki, aprel döyüşçüləri sırasında ən gənci olan Əlizaman İslamov 6 ay hərbi xidmətdə olmasına baxmayaraq düşmən üzərinə cəsarətlə getməyi bacarıb. Həmin döyüşlər zamanı o, hərbçi yoldaşları ilə birlikdə azad olunan yüksəkliklərin qazanılmasında qorxmaz bir igid kimi vuruşub, şəhidlik zirvəsinə ucalıb.

Şəhid Əlizaman İslamov ölümündən sonra göstərdiyi şücaətə görə Prezident İlham Əliyevin Sərəncamı ilə "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalı ilə təltif edilib.

Mərasim iştirakçıları daha sonra şəhidin kənd qəbirstanlığındakı məzarını ziyarət edərək, ruhuna dualar oxuyublar.

**Ağaddin ŞAĞLASERLİ**



# XEYRİYYƏ AKSİYASI

Mərkəzi Gömrük Hospitalı Lənkəranda xeyriyyə aksiyası keçirib. Hospitalın 20-yə yaxın yüksək ixtisaslı, peşəkar, uzman kardioloq, dermatoloq, uşaq cərrahı, təcrübəli tibb bacılarından ibarət həkim briqadası tərəfindən müayinə edilən xəstələrə məsləhətlər verilib və lazımi müalicələr təyin edilib.

Hospitalın kardiologiya şöbəsinin rəhbəri, uzman Ülvi Mirzəyev Azərbaycan Prezidentinin göstərişi ilə respublikanın hər yerində əhalinin pulsuz müayinədən keçirildiyini, çalışdığı tibb kollektivinin də bu nəcib aksiyaya qoşularaq ikinci dəfə Lənkəran şəhərində sakinlər üçün pulsuz müayinə təşkil etdiyini bildirib.

Lənkəran Şəhər İcra Hakimiyyəti tərəfindən bu xeyirxah aksiyaya dəstək verildiyini, müayinələrin aparılması üçün şəhərdəki Medican Hospitalda hər cür şəraitin yaradıldığını qeyd edən Ü.Mirzəyev əvvəlki aksiyadan fərqli olaraq bu dəfə həkim briqadasına göz, dəri xəstəlikləri və uşaq cərrahiyyəsi üzrə təcrübəli uzmanların da cəlb edildiyini diqqətə çatdırıb.

Ümumilikdə 300-dən çox rayon sakini xeyriyyə aksiyasından yararlanıb. Xəstələr yüksək tibbi xidmətin təşkilinə görə dövlətimizin başçısına və Mərkəzi Gömrük Hospitalının rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

**A.ŞAĞLASERLİ**

# LƏNKƏRANDAN MOSKVAYA BİRBAŞA REYS AÇILIR



İyunun 8-dən etibarən "Azərbaycan Hava Yolları"nın Moskva–Lənkəran–Moskva marşrutu üzrə birbaşa reysləri açılacaq.

"AZAL" QSC-nin yaydığı məlumata görə, reyslər "Airbus A320" təyyarələri ilə hər həftə cümə günləri yerinə yetiriləcək.

"Vnukovo" Beynəlxalq Aeroportundan (VKO) uçuş yerli vaxtla saat 10:00-da, Lənkəran Beynəlxalq Aeroportuna eniş yerli vaxtla saat 14:10-da baş tutacaq. Lənkərandan uçuş yerli vaxtla saat 15:40-da, Moskvaya eniş yerli vaxtla saat 17:50-də olacaq.

**Barat KƏRİMOV**

# DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ MÖVZUSUNDA



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi"nin qeyd edilməsi ilə bağlı Sərəncamına uyğun olaraq Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Lənkəran bölgəsi üzrə şöbəsi, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Lənkəran bölgəsi üzrə səlahiyyətli nümayəndəliyi və Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) birgə təşkilatçılığı ilə QMİ-nin səlahiyyətli nümayəndəliyində "Azərbaycanda dövlət-din münasibətləri: Dünən və bu gün" adlı tədbir keçirilib.

Rayondakı dini icma sədrlərinin, din xadimlərinin iştirak etdikləri tədbiri giriş sözü ilə açan QMİ-nin Lənkəran bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Qəni Axundzadə çıxışında ölkəmizdə dövlət-din münasibətlərinin sağlam prinsiplər üzərində qurulduğunu, dövlətin dini sahəyə, din xadimlərinə diqqət və qayğı göstərdiyini qeyd edib.

DQİDK-in Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri Qağayı Məmmədov çıxışında türk-müsəlman dünyasında ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti, onun mövcud olduğu 23 aylıq fəaliyyət dövründə dövlət-din münasibətləri haqqında məlumat verib. Q.Məmmədov Azərbaycan Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olan müstəqil Azərbaycan Respublikasında dövlət-din münasibətlərinin Ümummilli Lider Heydər Əliyev tərəfindən çox böyük uzaqgörənliklə əsasının qoyulduğunu, bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirildiyini vurğulayıb.

Lənkəran ŞİH-nin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Asif İmanlı çıxışında ölkəmizdə tarixən hökm sürən tolerant, multikultural ənənələrdən, bu ənənələrin qorunmasında Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətlərindən danışıb.

Lənkəran rayonunun Cil kənd "Hüseyniyyə" məscidinin dini icmasının sədri və imamı Əliəşrəf Əliyev, Havzava kənd məscidinin dini icmasının sədri İltifat Həsənov, Girdəni kənd məscidinin imamı Adil Əskərov, Mamusta kənd məscidinin imamı Vüsal Cəfərov, Sütəmurdov kənd məscidinin imamı Fəxri Sadıqov çıxışlarında Azərbaycanda hökm sürən etnik və dini tolerantlığın dünyaya nümunə olduğunu, ölkəmizin bütün dünyada tolerantlıq örnəyi kimi tanındığını qeyd ediblər. Natiqlər Prezident İlham Əliyevin "Multikulturalizm ili"nin ardınca, 2017-ci ili "İslam Həmrəyliyi ili" elan etməsini milli-mənəvi və dini dəyərlərə verilən dəyər kimi yüksək qiymətləndiriblər.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Ağaddin BABAYEV**

# VƏKİLLƏR ÜÇÜN REGİONAL MÜŞAVİRƏ



Azərbaycanda vəkilliyin inkişaf etdirilməsi və müasirləşdirilməsi sahəsində aparılan islahatlar çərçivəsində Vəkillər Kollegiyası sədrinin başçılıq etdiyi nümayəndə heyəti cənub bölgəsində səfərdə olub.

Lənkəran Rayon Məhkəməsinin inzibati binasında region vəkillərinin iştirakı ilə müşavirədə çıxış edən Vəkillər Kollegiyasının sədri Anar Bağırov "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 22 fevral 2018-ci il tarixli Sərəncamı, Sərəncamın Azərbaycanda vəkillik institutu üçün önəmi, bununla bağlı görülən işlər və qarşıda duran vəzifələr barədə müşavirə iştirakçılarına ətraflı məlumat verib.

İşgüzar şəraitdə davam edən müşavirədə Vəkillər Kollegiyasının rəhbərliyi regionda fəaliyyət göstərən vəkillərin problemləri ilə maraqlanıb, fəaliyyətləri zamanı qarşıya çıxan çətinliklərin müzakirəsi, onların həlli yolları barədə fikir mübadiləsi aparılıb.

Tədbirdə çıxış edən vəkillər Azərbaycan Respublikası Prezidentinin 22 fevral 2018-ci il tarixli Sərəncamını və bu sənəd çərçivəsində görülən işləri çox yüksək dəyərləndirərək, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsinin təmin edilməsi məqsədilə vətəndaşların yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun daha səmərəli formada həyata keçirilməsinin vacibliyini, habelə vəkillərin peşə etikası məsələlərinə bundan sonra xüsusi həssaslıqla yanaşılacağını diqqətə çatdırıblar.

Səfər zamanı Vəkillər Kollegiyasının sədri Anar Bağırov, müavini Pərviz Ələkbərov və Rəyasət Heyətinin üzvü Muxtar Mustafayev Masallı, Lənkəran və Cəlilabad rayonlarında fəaliyyət göstərən vəkil qurumlarına səfər etməklə onların işi ilə yaxından tanış olublar.

Hüquq məsləhətxanalarının maddi-texniki vəziyyəti ilə tanışlıqdan sonra vəkil qurumlarının maddi-texniki təminatının yaxşılaşdırılması məsələsinə toxunulub, bununla bağlı müəyyən tapşırıqlar verilib, 22 fevral tarixli Sərəncamın bu baxımdan xüsusi əhəmiyyət kəsb etdiyi, vəkil qurumlarının fəaliyyət göstərdikləri binaların vətəndaşlara yüksək keyfiyyətli hüquqi xidmət göstərilməsi üçün əlverişli vəziyyətə gətirilməsi, qurumların elektron avadanlıqlarla təchiz edilməsi və digər məsələlər qeyd edilib.

**Ağaddin BABAYEV**

# MİRHAŞIM MİRMURTUZA OĞLU TALIŞLI

Lənkəran ictimaiyyətinə ağır itki üz vermişdir. Azərbaycanın ictimai-ədəbi mühitinin tanınmış simalarından biri, alovlu vətənpərvər, müəllim, şair, tədqiqatçı, etnoqraf, folklorşünas, Azərbaycan Yazıçılar Birliyinin üzvü, respublikanın Əməkdar müəllimi, filologiya elmləri namizədi, dosent, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Hacı Mirhaşım Mirmurtuza oğlu Talışlı 6 aprel 2018-ci il tarixdə 92 yaşında vəfat etmişdir.



M.Talışlı 21 mart 1926-cı ildə Lənkəran şəhərində anadan olmuşdur. Lənkəran şəhər 3 saylı orta məktəbini (1943), Lənkəran Pedaqoji Texnikumunu (1948), Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini (1964) bitirmiş, əmək fəaliyyətinə Lənkəran 3 saylı uşaq evində tərbiyəçi-müəllim işləməklə başlamışdır (1943-1946).

Lənkəran Pedaqoji Texnikumunu bitirdikdən sonra əmək fəaliyyətini Cəlilabad rayonunun Ləkin kəndində (1948-1949) davam etdirən Mirhaşım Talışlı sonralar Lənkəran şəhər 3 saylı orta məktəbində müəllim, yerli radio verilişləri redaksiyasında ədəbi işçi və diktor (1949-1950), Gərmətük qəsəbə (1953-1958), Liman şəhər 1 saylı (1964-1965), Lənkəran internat (1965-1967), Lənkəran şəhər 1 saylı orta (1967-1978) məktəblərində müəllim, şəhər maarif şöbəsində metodist (1978-1980), Lənkəran Dövlət Universitetinin müəllimi (1994-2012), o cümlədən 1998-2008-ci illərdə LDU-da Azərbaycan Dilçiliyi kafedrasının müdiri işləmişdir.

Mirhaşım Talışlı 100-dən çox elmi məqalənin, 6 kitabın, 3 metodik vəsaitin müəllifi idi. Lənkəran tarixinə, xüsusilə XIX əsr Lənkəran ədəbi mühitinə, şair Mirzə İsmayıl Qasirin həyatı və yaradıcılığına aid elmi araşdırmaları Azərbaycan tarixi və ədəbiyyatına daxil olmuşdur.

Klassiklərimizin, həmçinin əruz vəzninin mahir bilicisi olan M.Talışlı ana dili ilə yanaşı, rus, ingilis və fars dillərində orijinaldan tərcümələr etmişdir. "Müsafir" imzası ilə şeir və qəzəlləri vardır. Füzulişünas idi. Füzulinin əsərlərinin tədqiqinə aid elmi məqalələri nüfuzlu mətbuat orqanlarında çap olunmuşdur. Şeirlərinə mahnılar bəstələnmişdir.

1990-cı ildə XIX əsr "Föycülfüsəha" ədəbi məclisini bərpa edərək onun sədri seçilən Mirhaşım Talışlı respublikanın ayrı-ayrı rayonlarında, o cümlədən Bakıda, Qubada, Gəncədə və digər yerlərdə fəaliyyət göstərən ədəbi məclislərin fəxri üzvü idi. Klassik ədəbiyyatımızda mübahisə doğuran məsələlərə, adətən, M.Talışlı yekun vururdu.

Mirhaşım Talışlı Lənkəranda keçirilən mədəni-kütləvi tədbirlərin, Kitab, Məhsul və Mahnı bayramlarının hazırlanmasında fəal iştirak etmişdi. SSRİ Maarif əlaçısı, metodist müəllim idi. Müqəddəs Həcc ziyarətində olmuşdu.

M.Talışlı Azərbaycan ədəbiyyatının inkişafında xidmətlərinə görə 2006-cı ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür.

İctimai xadim, nəcib və xeyirxah insan, el ağsaqqalı Hacı Mirhaşım Talışlının işıqlı xatirəsi qəlbimizdə həmişə yaşayacaqdır.

Allah rəhmət eləsin!

**Taleh Qaraşov, Möhübbət Babayev, Rasilə Əliyeva, Xalid Rəhimov, Elşad İbrahimov, Namiq Abbasov, Elçin Məmmədov, Əliəjdər Ələkbərov, İslam Hümbətov, Kamal Kələntərli, Natiq İbrahimov, Əlimərdan Əliyev, İqbal Rəcəbov, Allahyar Salayev, Yalçın Əhmədov.**

## Redaksiyaya məktub

# ÇAYIMIZ SƏRVƏTİMİZDİR



**Özünün xoş ətri, tamı və başqa xassələri ilə uzun müddətdən bəri insanların hüsn-rəğbət və nəzərdiqqətini cəlb etmiş çay dünyada ən çox istifadə edilən içkidir.**

Heç kimə sirr deyil ki, respublika əhalisinin quru çaya olan tələbatı xaricdən gətirilən hazır məhsul hesabına ödənilir. Maraqlıdır ki, həm istehsalı, həm də istehlakı ölkəmizdə mümkün olan bu gözəl sərvətdən xeyli müddətdir ki, lazımınca faydalana bilmirik.

Həm iqtisadiyyatımızda, həm də təbiətimizin ekologiyasında və florasında müstəsna əhəmiyyətli rol oynayan çayçılığın inkişafı ilə əlaqədar dövlət başçımız cənab İlham Əliyevin 12 fevral 2018-ci ildə imzaladığı Sərəncam ölkəmiz və xalqımız üçün mühüm əhəmiyyət kəsb edir. Həmin sənəddə göstərilir ki, 2027-ci ilə qədər ölkəmizdə çay əkin sahələri 3 min hektara, çay istehsalı 8,5 min tona çatdırılmalıdır.

Bunun üçün ilk növbədə təbiətin bizə bəxş etdiyi çaya yararlı (pH 4.5-6 turş və turşameyilli) torpaqların dəqiq uçotu aparılmalıdır. Çaya yararlı torpaqlar, hətta insanlara əvəzsiz verilsə də, ancaq təyinatı üzrə maksimum halda istifadə olunmalıdır. Çünki bu torpaqlar ölkəmizdə məhdud saydadır. Belə qism torpaq payçıları ilə fərdi işlər aparılmalı və izah olunmalıdır ki, həyat davam etdikcə çay içkisinə tələbatımız artacaq və bu tələbatı çaya yararlı torpaqlardan səmərəli istifadə etməklə ödəmək mümkündür. Bu dövlət sənədinin yerinə yetirilməsi üçün çay altında olmuş torpaqların bir qarışı da istifadəsiz qalmamalıdır.

Bu torpaqlara sahib olanların bəzilərinin əmək qabiliyyətli işçi qüvvəsinin olmaması, bəzilərinin isə xarici ölkələrdə yaşaması və bu kimi başqa səbəblərdən həmin torpaqlar tamam istifadəsiz qalıb, ya da təyinatı üzrə istifadə olunmur. Bu torpaqlara sahib olanların hüquqları qorunmaqla razılaşmalar əldə olunmalıdır. İri birgə və fərdi təsərrüfatlar yaradılmalı, yerli icra orqanları da bu işlərə güclü nəzarət etməlidir.

Fikrimizcə, təbiətimizin bizə bəxş etdiyi məhdud çaya yararlı torpaqlardan təyinatı üzrə yüksək səmərə və keyfiyyətlə istifadə edilməlidir.

**Mərdan ŞİRƏLİYEV,**
**Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun Lənkəran Çay Filialının böyük elmi işçisi.**
**Mirəhməd CABBAROV,**
**iqtisadçı-ekspert**

## İTMİŞDİR

Lənkəran Rayon Aqrar İslahat Komissiyasının 1998-ci il 16 may tarixli 09 saylı qərarı ilə Şağlaser kənd sakini **Paşayev Vaqif Himmət oğlunun** adına verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN-170, kod:80224018) itdiyi üçün etibarsız sayılır.

---

18.11.2008-ci il tarixdə Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Lənkəran Şəhər Ərazi İdarəsi tərəfindən Lənkəran rayonunun Daşdalığlar kənd sakini **Seyfullayev Sahil Sahib oğlunun** adına verilmiş 0009909 nömrəli çıxarış itdiyi üçün etibarsız sayılır.

---

17.11.2008-ci il tarixdə Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Lənkəran Şəhər Ərazi İdarəsi tərəfindən Lənkəran rayonunun Daşdalığlar kənd sakini **Seyfullayev Sahil Sahib oğlunun** adına verilmiş AA-002812 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

Milli Aviasiya Akademiyasının kafedra müdiri, professor İbrahim Quliyev və Xalq şairi Nəriman Həsənzadə şair-publisist, Əməkdar müəllim
**Hacı Mirhaşım Talışlının**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Lənkəran Dövlət Universitetinin rektor əvəzi Natiq İbrahimov və professor-müəllim kollektivi Əməkdar müəllim, Prezident təqaüdçüsü
**Hacı Mirhaşım Talışlının**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Kamal Kələntərli, Sərhad Məmmədov, Hacı Ələkbər Əliyev, Hacı Fəxrəddin Canıyev və Hacı Etibar Əhədov Əməkdar müəllim, şair-tədqiqatçı
**Hacı Mirhaşım Talışlının**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Yazıçı-publisist Yaşar Rzayev Prezident təqaüdçüsü, Əməkdar müəllim
**Hacı Mirhaşım Talışlının**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Cənub Regional Enerji Təchizatı və Satışı İdarəsinin kollektivi iş yoldaşları **Cavid Talışlıya**, əmisi
**Hacı Mirhaşım Talışlının**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Lənkəran" qəzetinin baş redaktoru Əlimərdan Əliyev və redaksiya kollektivi Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, Əməkdar müəllim, Prezident təqaüdçüsü
**Hacı Mirhaşım Talışlının**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Rəfail Rzayev və Hacı Arzuman Hüseynov yaxın dostları
**Nadir Kərimovun**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
Əlimərdan ƏLİYEV

TƏSİSÇİLƏR:
Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının aparatı və "Lənkəran" qəzetinin yaradıcı kollektivi

HESAB NÖMRƏMİZ:
AZ30AIIB33010019443860238138
VÖEN 2600244411
Kapital Bankın
Lənkəran şöbəsi
lisenziya № V 343
İndeks: 66920

ÜNVANIMIZ:
Lənkəran şəhəri, Heydər Əliyev prospekti, 3 (4-cü mərtəbə)
Telefonlar: 255-35-05, 255-35-49
E-mail: lenkeranqezeti@mail.ru
Buraxılışa məsul
Barat Kərimov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış və səhifələnmiş, Bakıda "Azərmedia" MMC-nin mətbəəsində çap olunmuşdur.
Tiraj: 2200